**FƏLSƏFƏ VƏ SOSİOLOGİYA**

**UOT 1; 165.12**

# POETİK DÜŞÜNCƏ VƏ POETİK DİL ƏLAQƏLƏRİNİN FƏLSƏFİ ASPEKTLƏRİ

**Fəxrəddin QULİYEV***

Məqalə redaksiyaya daxil olmuşdur: 12 avqust 2023; çapa qəbul edilmişdir: 1 sentyabr 2023; online-da çap edilmişdir: 27 sentyabr 2023.

Received: 12th of August, 2023; accepted: 1th of September, 2023; published online: 27th of September, 2023.

**Açar sözlər:** *poetik dil, poetik düşüncə, qeyri-xəttilik, izomorfluq, qarşılıqlı münasibət, konvergensiya, birgə təkamül*

## Giriş

Poetik düşüncə və poetik dil öz metaforik mahiyyətinə görə harmonik inkişaf edən poeziya sisteminə konvergensiya olunur. Poeziya harmoniya qanunu ilə inkişaf edən bütöv bir sistemdir. Poetik dil və poetik düşüncə strukturları davamlı olaraq qarşılıqlı əlaqədə olur, nəticədə bu strukturlar arasında uyğunluq dərəcəsi daha yüksəkdir. Müəyyən edilmişdir ki, poetik dil fikri təkcə ifadə etmir, həm də "ifadə edilə bilməyəni ifadə etmək" prinsipi ilə inkişaf etdirir.

Poetik dil ilə poetik təfəkkür arasındakı əlaqənin təkamülünü dil, təfəkkür və cəmiyyət münasibətləri işığında araşdırmaq daha məqsədəuyğundur. Odur ki, araşdırmada poetik düşüncə və poetik dil münasibətlərinin fəlsəfi aspektləri təkamül epistemelogiyası kontekstində tədqiqində poetik dil və poetik düşüncənin metaforikliyinə və dinamik strukturlarına diqqət yönəldilmişdir.

Düşüncə və dil insan varlığının əsas atributlarıdır. İnsanın yaradıcı fəaliyyəti düşüncəyə əsaslanır, yaradıcılığın nəticələri isə dildə öz ifadəsini tapır, maddiləşir və gələcək nəsillərə ötürülür.

Dil və düşüncə arasındakı çoxaspektli və dinamik münasibətlər dilçilər, psixoloqlar və filosoflar tərəfindən geniş tədqiq edilmişdir [3, 7, 8, 9]. Lakin insan və gerçəklik münasibətlərinin ilk dəfə olaraq poetik düşüncədə ifadə olunmasına baxmayaraq poetik düşüncə və poetik dil münasibətlərinin tədqiqinə lazımi diqqət verilməmişdir.

Məqalə poetik düşüncə və poetik dil münasibətlərinin fəlsəfi aspektinin tədqiqinə həsr edilmişdir.

Məntiqi kateqorial düşüncə ilə poetik düşüncə və nəsr dili ilə poetik dil arasında uyğunluqla yanaşı ciddi fərqlər də mövcuddur. Bunu nəzərə alaraq qeyd edilən dil və düşüncə formaları arasındakı münasibətlərin komparativistik tədqiqini daha məqsədəuyğun hesab edirik.

## 1. Fəlsəfi ədəbiyyatda düşüncə anlayışının definisiyaları

Düşüncənin genetik təsnifatı obyektin təqdimat forması və dünyanın dərki üsulları ilə fərqlənən üç inkişaf səviyyəsini müəyyən edir:

* *texnika elmləri üzrə fəlsəfə doktoru, dosent, Heydər Əliyev adına Hərbi İnstitut*
*e-mail:* Fakhraddin.Kuliev@mail.ru

1) əyani-təsirli (obyektlə praktiki fəaliyyət vasitəsilə)
2) vizual-obrazlı (obrazlı təsvirlərdən istifadə etməklə)
3) verbal-məntiqi (məntiqi anlayış və işarələrdən istifadə etməklə)

Bu təsnifatdan başqa düşüncənin iki mexanizmindən də istifadə edilir.

Onlardan biri abstrakt simvol, mətnlərlə və s. işləməyə imkan verir. Bu düşüncə mexanizmi adətən simvolik və ya məntiqi adlanır və öz adekvat nəzəri bilik formasında həyata keçirilir.

Düşüncənin ikinci mexanizmi obrazlı düşüncədir, onun fəaliyyətinin əsas nəticələri idrak təcrübəsini müəyyən mənada ümumiləşdirən bədii-dini yaradıcılıq məhsullarında ifadə olunur.

Biz bu təsnifata linqvistik düşüncəni də əlavə etməyi məqsədəuyğun hesab edirik. Belə ki, linqvistik düşüncə dil və düşüncə arasında real əlaqə yaradır. Linqvistik düşüncə məlum olduğu kimi dünyanın konseptual mənzərəsinin seqmentləşdirmə üsuludur. Dil ikinci, dolayı inikas formasıdır. Linqvistik düşüncə həm də milli düşüncənin baza elementlərindən biridir.

Düşüncə "obyektiv reallığı əks etdirən psixi proseslər" qismində insan biliyinin ən yüksək dərəcəsini təşkil edir və "obyektiv reallığın əsas xassələri, əlaqələri və münasibətləri haqqında biliklər" verir.

Bununla əlaqədar olaraq, düşüncə obyektin bilavasitə verilmə hüdudlarından kənara çıxan, onun fəaliyyət göstərmə və ya dəyişmə formalarının rekonstruksiyasının xüsusi növüdür.

Düşüncə anlayışının fəlsəfi ədəbiyyatda müxtəlif aspektdə definisiyaları verilir.

Düşüncə vacib idrak qabiliyyətidir, bunun sayəsində insan dünya və özü haqqında bilik əldə edir, həmçinin öz praktiki fəaliyyətini planlaşdırır və həyata keçirir [18, 344-345]. Düşüncə, insanın obrazları, ideyaları, anlayışları əlaqələndirmək, onların dəyişdirilməsi və tətbiqi imkanlarını müəyyən etmək, davranışı, ünsiyyəti və düşüncənin özünün sonrakı hərəkətini tənzimləyən nəticələri əsaslandırmaq qabiliyyətidir [19, s. 393-395].

Düşüncə reallığın vasitəli və ümumiləşdirilmiş əksidir, obyektiv aləmin əsas xassələri, əlaqələri və münasibətləri haqqında bilik verir, obyektiv aləmin ümumiləşdirmə və vasitəli idrak üsulları ilə əlaqəli anlayışlarda, mühakimələrdə, nəzəriyyələrdə əks etdirilməsinin aktiv prosesidir; xüsusi təşkil olunmuş maddənin – beynin ən yüksək məhsuludur [20, s. 411].

Bu definisiyalardan göründüyü kimi, düşüncə predmetlərin əsas xüsusiyyətləri və münasibətlərini insanın məqsədyönlü, vasitəli və ümumiləşdirilmiş əks etdirilməsidir.

Nəticə etibarilə idrakın dialektik, sistemli, çoxaspektli, qeyri-xətti təbiətini və inkişafa uyğun dəyişə bilən dinamik məntiqi-kateqorial strukturunu (analiz, sintez, ümumiləşdirmə və mücərrədləşdirmə) qeyd edə bilərik.

Düşüncə heterogen strukturludur, müxtəlif təbiətli elementlərin üzvi sintezindən təşkil olunur. Düşüncə prosesində bir-biri ilə ziddiyyət və vəhdətdə olan zehni əməliyyatlar, bəzən biri digərini əvəz edir, problemin təbiətindən asılı olaraq bu əməliyyatların prioriteti dəyişir.

## 2. Fəlsəfi ədəbiyyatda dil anlayışı

Dil reallığı inikas etməyə, onun dinamik proyeksiyasını verməyə qadirdir. Dilin koqnitiv funksiyaları sayəsində obyektiv reallıq müxtəlif obyektlərə çevrilir və bu obyektlər üzərində müvafiq məntiqi əməllər aparılır.

Dilin əsas məqsədi ünsiyyət, fikrin adekvat ifadəsi və ötürülməsidir, həm də onun mövcudluq formasıdır. Dil düşüncənin birbaşa fəaliyyəti kimi qiymətləndirilir.

Dilin fəlsəfi ədəbiyyatda verilmiş definisiyalarını nəzərdən keçirək.

"Dil öz universal xassəsinə malik bir işarə sistemi kimi insan şüurunun prosesuallığının və onun vəziyyətlərinin ifadəsini verir, dünya haqqında inteqral təsəvvürlər sistemini idrakın nəticəsi qismində təqdim edir. Dil probleminin qoyuluşu öz fundamentallığına

görə fəlsəfi analizin qədim predmetidir [13, s. 1250-1255].

Dil problemi fəlsəfənin qədim problemidir, bu nöqteyi-nəzərdən təfəkkürün prosessuallığını, dünya haqqında təsəvvürləri sistemli şəkildə ifadə edir, cəmiyyətdə nəzəri və praktik yönümdə funksiyaları yerinə yetirir.

Dilin funksiyalarını iki qrupa ayırmaq olar: kommunikativ, yəni ünsiyyət vasitəsi və gerçəklik haqqında yeni biliklər əldə etmək vasitəsi kimi idrak funksiyası.

Kommunikativ funksiyanın elementlərindən təmas qurma, hərəkətə təşviq, epistemik funksiyalarını qeyd etmək olar.

İdrak funksiyasının elementləri isə aksioloji, nominativ, ümumiləşdirmə və predikativ funksiyalardır.

"Konservativliyi sayəsində dil yalnız mövcud mədəniyyətin deyil, həm də xalqın öz inkişafı tarixi ərzində yaratdığı mədəniyyətin tərkib hissəsi olur. Bununla da, dil insanın öz keçmiş varlığının dərkinə böyük töhfə verir, onu mümkün edir və gələcəyə proqnoz vermək üçün zəmin yaradır" [12, s. 507-508].

Dil mədəniyyətin tərkib hissəsidir, insanın özünüdərkinə töhvə verir, bəşər mədəniyyətinin nailiyyətlərini mühafizə edir və gələcək tədqiqatçılar nəsillərinin istifadəsinə verir.

"İdrak dilin köməyi ilə və dil işarələri vasitəsi ilə həyata keçirilir, işarənin mənasında obyekt və hadisələrin ictimai praktikasının məcmusu ilə seçilən xarakter xüsusiyyətləri fiksə edilir. Dil müəyyən hisslər hesabına yaranan davranışına təsir edir" [18, s. 716-717].

Dil yalnız insanın təfəkkür tərzinə deyil, eyni zamanda davranış tərzinə təsir edir, insanın dünyagörüşünü formalaşdırır.

### 3. Dil və təfəkkür münasibətləri

Yuxarıda qeyd olunanları ümumiləşdirərək, dil və təfəkkür münasibətləri haqqında bu qeydləri etmək olar.

Dil və təfəkkür bir-biri ilə sıx bağlı olan iki sosial fəaliyyət növüdür. Dil insan varlığının mühüm xüsusiyyəti, bununla da onun idrak fəaliyyətinin əsas şərtidir, başqa sözlə, dil yalnız fikrin ifadə vasitəsi və maddi daşıyıcısı deyil, eyni zamanda, təfəkkür proseslərinin mənbəyi, ona enerji və impuls verəndir. Bu baxımdan düşüncənin formalaşmasına məntiq kateqoriyaları ilə yanaşı dil kateqoriyaları da ciddi təsir göstərir. Dil vahidləri məntiqi düşüncə vahidləri ilə əlaqələndirilir, dil və düşüncə kateqoriyaları arasında davamlı uyğunlaşma prosesi bu əlaqələri möhkəmləndirir. Yəni dillə düşüncə arasında struktur və funksional baxımdan konvergensiya baş verir.

Şüur dil formasında təzahür edir, fikirlərin adekvat ifadəsi üçün müxtəlif formalardan istifadə edir. Çoxölçülü məzmun planının ifadə planına birmənalı uyğunluğun olmaması faktı dil və düşüncə arasındakı münasibətlərin qeyri-xətti olduğunu göstərir.

### 4. Poetik düşüncə ideyası məntiqi-fəlsəfi kateqoriyaların tərkib hissəsi kimi

İnsanların dünyaya baxışı mifoloji düşüncədən yaranmış poetik düşüncə ilə formalaşıb. Bu mənada poetik düşüncə ilkindir və məntiqi-kateqorial düşüncədən ciddi surətdə fərqlənir və müstəqil düşüncə tərzidir.

Düşüncə tərzi sistem anlayışıdır, öz təşəkkül və inkişaf qanunauyğunluqlarına malikdir. Müəyyən dövr ərzində elmi ictimaiyyət tərəfindən qəbul edilmiş əsas elmi və metodoloji prinsiplər sistemini ehtiva edir.

"Stil hər hansı bir məsələyə baxılan nöqteyi-nəzəri (birtərəfli və ya çoxtərəfli) xarakterizə edir, etibarlılıq və ya tənqidilik dərəcəsini, məntiqdən, ənənədən və ya yenilikdən istifadəni, dünyaya baxışın mürəkkəblik dərəcəsini,... göstərir. Beləliklə, düşüncə tərzini dərk edərkən, ilk növbədə, məntiq və aksiologiya nəzərə alınmalıdır" [14, s. 21].

Elmi düşüncə stili daha geniş tədqiq edilmişdir. Elmin fəlsəfəsi üzrə tanınmış mütəxəssis L.A.Mikeşina elmi düşüncə stilinin metodoloji rolu ilə yanaşı dəyər yönümlü, xüsusən də fəlsəfi və ideoloji komponentlərinin roluna diqqəti yönəldir [9, s. 344].

"Düşüncə tərzi, müəyyən bir mədəniyyətin düşüncə stili və ya tərzi bu mədəniyyətin (epoxanın, sivilizasiyanın) nəzəri təfəkkürünün qlobal, əsasən gizli ilkin şərtlər toplusudur.... Düşüncə stili - dünyanın nəzəri tədqiqinin gizli dominantları, nümunələri, prinsipləri, formaları və kateqoriyalarının mürəkkəb, iyerarxik nizamlanmış sistemidir" [5, s. 24].

Düşüncə stilinin müxtəlif definisiyalarının təhlili göstərir ki, düşüncə stili hər hansı bir məsələyə baxılan nöqteyi-nəzəri, dünyaya baxışın mürəkkəblik dərəcəsini xarakterizə edir, dünyanın nəzəri tədqiqinin gizli dominantları, prinsip və formaları onun əsas elementləridir. Daha ümumi halda düşüncə tərzinin metodoloji rolu ilə yanaşı dəyər yönümlü, xüsusən də fəlsəfi və ideoloji komponentlərinin rolu elmin humanistləşdirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

Poetik düşüncə stilinin xarakterizə etməzdən öncə poetik düşüncənin definisiyalarını nəzərdən keçirək.

Poetik düşüncə mifik düşüncədən yaranır, poetik düşüncə mifoloji düşüncəni o zaman əvəz edir ki, metafora, alleqoriya olduğu kimi tanınır, yəni sözdə obraz və məna bir-birindən ayrılaraq onların həqiqi münasibətində reallaşır [16, s.176].

Poetik düşüncə məntiqi-kateqorial düşüncənin ziddinə olaraq irrasionallığa, intuisiyaya, metaforikliyə üstünlük verir. "Məzmun baxımından poetik düşüncə sərt rasionalizmin kökündən rədd edilməsini nəzərdə tutur;... rasional səylə əldə edilə bilməyən şeyin qeyri-rasional qavrayışın şərti kimi çıxış edir [13, s. 787-789].

Bununla birlikdə, düşüncə forması kimi poeziya transsendent olana, yəni, təcrübi biliyin xaricində olana can atır. Şair transsendensiya edən insandır, transsendensiya isə obyektiv reallığın, dərk olunan dünyanın hüdudlarından kənara çıxmağı tələb edir. Şair transsendensiya sayəsində insan mövcudluğundan "kənarda" olanı görüb onun poetik ifadəsini verə bilir.

Poetik düşüncə ideyası məntiqi-fəlsəfi kateqoriyaların metafizik təbiəti, o cümlədən J.Derrida tərəfindən yaradılmış "kateqoriya" anlayışının özü ilə bağlı nəticələrindən irəli gəlir... Kateqoriyalar sistemi varlığın qurulması yolları sistemidir [6, s. 235-240].

Poeziyanın məqsədi həqiqəti axtarmaq, ətraf aləmi onun daxili ziddiyyətləri ilə şərh etmək və insanların dünyagörüşünü formalaşdırmaqdır.

Poetik düşüncədə spontanlıq və emosional təşkiledicilərin xüsusi rolunu qeyd etmək lazımdır. Poetik yaradıcılıqda emosional faktorların təsiri baş beynin sağ yarımkürəsinin fəaliyyəti ilə bağlıdır. **"**Sağ yarımkürə isə vizual-məkan və emosional rəng almış davranışla əlaqəlidir, anadangəlmə və qazanılmış vizual ümumiləşdirmə sağ yarımkürədə təmsil olunur; emosional rəngli vizual təəssüratların ilkin işlənməsi sağ gicgah qabığı ilə əlaqəlidir" [17, s. 20-22]. Sağ yarımkürənin elmə məlum olan digər funksiyalarını xatırlamaq poetik düşüncənin müəyyən aspektlərini daha real anlamağa əsas verir: dünyanın bütöv dərki, obrazlı, vizual və effektiv düşüncənin həyata keçirilməsinə cavabdehdir; intuisiyanı idarə edir, kortəbii qərarlar qəbul edir; şüuraltına əsaslanan məlumatları, yaradıcı təcrübələri idarə edir; nitqin ifadəliliyini təmin edir.

Sağ yarımkürənin daha erkən inkişafı dünyanın dərkində fantaziya, bütövlük və sistemli yanaşma üçün vacib rol oynamışdır. Məhz bunun nəticəsində poeziya və incəsənət zaman etibarı ilə elmi qabaqlamışdır. Şeirin bədahətən söylənməsi spontanlıqla bağlıdır, spontanlıq yeni assosiativ əlaqələrin, buna uyğun yeni məntiqi strukturlar və çoxsəviyyəli strukturların aşkar edilməsinə zəmin yaradır. "Spontanlıq zaman çərçivələri ilə məhdudlaşmır, o, zaman burulğanına səbəb olan qabağa qaçmaqla eyniləşdirilir. Spontanlıq bizim dünyamıza bitişik olan başqa bir dünyanın reallığıdır" [11, s. 240].

Poetik təfəkkürün əsas elementlərindən biri də metaforiklikdir. Metafora bir-birindən uzaq olan predmet, proses və konsepsiyalar arasında gizli, latent əlaqələri aşkar etməklə keyfiyyətcə yeni bir ideyanın yaranmasına səbəb olur. Metaforanın az-çox aşkar əlamətinə görə iki müxtəlif hadisəni gözlənilmədən yaxınlaşdırmaq xassəsi yeni bədii reallıq yaradır, şairə böyük poetik azadlıq, sərbəstlik verir. Metafora vasitəsi ilə emosiyaların mahiyyətə transformasiyası mümkün olur.

Beləliklə, metafora bizə müəyyən bir dil mədəniyyətini daha dərindən dərk etmək, yəni onunla tarixi kontekstdə tanış olmaq imkanı verir.

Metaforalar, assosiativ düşüncə daxil olmaqla, intellektual səylərin böyük qənaətini verir. Poetik metaforanın dünyagörüşü formalaşdırmaq rolu bu sahədə poeziyanın əsas elementi kimi qiymətləndirilə bilər. Poetik metafora milli-mənəvi dəyərləri ifadə etməklə etnosun dünyagörüşünün formalaşmasında əhəmiyyətli rol oynayır.

Beləliklə, poetik düşüncə tərzini qısaca olaraq belə xarakterizə etmək olar: dəyər yönümlülük poeziyanın birbaşa funksiyasına aiddir, poetik düşüncə məntiqinin əsasında metafora dayanır; irrasionallıqdan və gizli biliklərdən poeziyada daha çox istifadə olunur. Dünya baxışına gəlincə poeziyanın tarixi göstərir ki, ayrı-ayrı dövrlərdə bu və ya digər mövzular dominant rol oynamışdır.

## 5. Poetik dil

Yuxarıda qeyd etdiyimiz klassik və xalq poeziyaları bölgüsü poeziya əsərlərinin leksikonunda da öz əksini tapır. Klassik poeziyada filosofların konsepsiyalarından geniş istifadə edilir (Nizamiyə müraciət bəs edər). Biz klassik poeziya nümunələrində elmi-fəlsəfi terminlərə rast gələ bilərik. Xalq poeziyasında isə canlı xalq dili, dialektlər, milli frazeologiya üstünlük təşkil edir.

Dilin mahiyyəti poeziyanın mahiyyətindən anlaşılmalıdır. Dilin idrak və ifadə vasitəsi kimi potensial imkanlarını əsasən poeziyada görmək mümkündür.

Poetik dilin strukturu dinamik, motivasiya edilmiş, yaradıcılığa köklənmiş strukturdur. Struktur baxımından poetik dildə bəzi yeni dil strukturları yaradılır, yəni poetik dil adi dildə alternativi olmayan qeyri-adi konstruksiyalara malikdir. Bu qeyri-adi dil konstruksiyaları gündəlik təcrübədən kənarda olan poetik fikirləri ifadə etmək azadlığı verir.

Poeziyada bütövlük prinsipi dünyanın bütöv dərki prinsipindən yaranır, bütövlük probleminə sistem-struktur yanaşmasında poeziyanın dinamik inkişaf edən mürəkkəb qeyri-xətti sistem kimi funksional-struktur məsələləri tədqiq edilir. Poetik əsərin ümumi struktur prinsipi qayıdış prinsipidir. Rekursiv qayıdış prinsipi keçmiş konsepsiyalarla indiki konsepsiya arasındakı əlaqə, mövcud konsepsiyalar əsasında gələcək vəziyyətin qiymətləndirilməsi, öngörülməsidir. F.de Sessörün "dil strukturları oxşarlıq və fərqliliklər mexanizminə uyğun yaradılır" [4, s. 108] prinsipi universal prinsip kimi poeziyada ilk baxışdan əlaqəsiz görünən müxtəlif elementləri müqayisə və ya qarşılaşdırma ilə mürəkkəb, dinamik strukturda birləşdirməyə imkan verir: bu struktur üçün iyerarxiklik, elementlər arasındakı münasibət və qarşılıqlı təsirlərin dinamizmi, qeyr-xəttiliyi xarakterikdir.

İ.M.Seçenovun beynin reflektor nəzəriyyəsi, İ.P.Pavlovun mərkəzi sinir sisteminin fəaliyyəti haqqında təlimi, A.A.Uxtomskinin dominantlıq nəzərəyyəsi, P.K.Anoxinin funksional sistem nəzəriyyəsi və sistemogenez konsepsiyasının təhlili əsasında bu nəticəyə gəlmək olar ki, türk xalq şeirinin strukturu ilə mərkəzi sinir sisteminin strukturu arasında izomorfluq mövcuddur [1, s. 113].

Bu izomorfluq gerçəkliyin hissi-məntiqi idrakı proseslərində baş beynin strukturu ilə poetik strukturların funksiyaları arasında paralellər aparmağa əsas verir.

## 6. Poetik düşüncə və poetik dil münasibətləri

Qeyd etdiyimiz kimi, poetik düşüncə ilk növbədə sağ yarımkürənin fəaliyyətinin

məhsuludur, ətraf gerçəkliyin intuitiv, obrazlı, metaforik və hissi-duyğusal inikasını verir. Bu baxımdan hissi idrakın əsas atributlarını nəzərdən keçirmək zərurəti yaranır.

B.Q.Ananyev göstərir ki, gerçəkliyin hissi inikası üçün bütövlük, hiss orqanları arasındakı münasibətlər üçün isə qeyri-xəttilik, bifurkasiya fenomeninin mövcudluğu xarakterikdir: "Müxtəlif duyğu funksiyalarının yüksək korrelyasiyası, bir çox duyğu sistemlərinin birləşdirilməsi və ümumiyyətlə, insanın hissi inkişafının bütövlüyünü təsdiq edir. Bu inteqral sistemdə interfunksional hissi strukturlar və mürəkkəb şaxələnmiş hiss zəncirləri əmələ gəlir. Bu zəncirlər, əlbəttə, xətti deyil" [2, s. 55-56].

K.Pribram öz fundamental tədqiqatlarında baş beynin fəaliyyətinin ümumi xarakterini – holoqrafikliyi və qənaət rejiminə meylliyini, hissi qavrayışla gerçəklik arasında izomorfluğu təsdiq etmişdir. K.Pribramın mühüm fikirlərindən biri qavrama proseslərində superpozisiya prinsipinin mövcudluğudur, belə ki, superpozisiya prinsipi baş beynin qeyri-xətti iş rejiminə şamil edilir: "Sensor qıcıqlanmalar sinir fəaliyyətinin dinamik strukturlarına çevrilir ki, bu da informasiyanı həddən çox itki vermədən saxlamağa imkan verir [15, s. 10]; Qavrama prosesində beyin fəaliyyətinin holoqrafik fərziyyəsi superpozisiya formasını alır. [15, s. 163]; Beynin və xüsusilə görmə sisteminin həm holoqrafik, həm də struktur olaraq təşkil olunduğunu göstərən müşahidələr, fiziki dünya ilə qavrayış arasındakı əlaqədə izomorfizm problemini yenidən gündəmə gətirir" [15, s. 421-422].

Burada qeyd olunan holoqrafiya onunla xarakterizə olunur ki, xarici dünya haqqında informasiya baş beyində paylanma formasında saxlanılır. Bu paylanmanın istənilən kiçik bir parçası obyekt haqqında məlumatı ehtiva edir. Deməli, holoqramma baş beynin fəaliyyətindəki fraktallığı təmin edir. Fraktallıq xassəsi böyüyün kiçikdə təkrarıdır, yəni obyektin kiçik bir parçası obyekti tam xarakterizə edir. İkinci vacib məqam isə xarici dünya ilə baş beyində onun inikasının izomorfluğu məsələsidir. Belə ki, izomorfluq təkamül proseslərində də mühüm rol oynayır: "idrakın reallıq haqqında (gözlənilən) əsas xüsusiyyəti izomorfluqdur. Deməli, idrakın və sosiobiologiyanın təkamül nəzəriyyəsi məntiqi nəticə ilə deyil, evristik səmərəli analogiya ilə əlaqədardır. Subyektiv və obyektiv strukturlar bir-birinə uyğun gəlir, uyğunlaşma faktı isə idrak üçün minimum şərtdir [ 21, s. 41-43].

İ.Çernikovaya görə, insan təkamülü ilə əlaqəli qlobal təkamül mərhələsi koqnitiv təkamül və sosial təkamül kimi iki əsas tamamlayıcı müstəvidə cərəyan edir, dil isə idrak-sosial təkamülünü təyin edən bir amildir [22, s. 105], dil və təfəkkürün qarşılıqlı əlaqəsi iki özünü inkişaf etdirən sistemin birgə təkamül prosesi kimi başa düşülməlidir [22, s. 109].

Nəzərdən keçirilən məsələlərə yekun olaraq qeyd etmək olar ki, baş beynin fəaliyyətində təkamül nəticəsində formalaşan izomorfluq, superpozisiya prinsipinin qüvvədə qalması, fraktallıq və qeyri-xəttilik xassələri düşüncə və dildə bu və ya digər formalarda təcəssüm olunur. Düşüncə və dilin birgə təkamülü isə öz yüksək mükəmməl formasına poetik dillə poetik düşüncənin poeziyaya konvergensiyasında çatır. Ona görə də, istər poetik düşüncə, istərsə də poetik dil üçün qeyri-xəttilik, holoqrafiklik, metaforiklik, fraktallıq, dinamik bütövlük, heterogenlik və qənaətlilik səciyyəvidir.

**Nəticə**

Sağ yarımkürənin daha erkən inkişafı dünyanın dərkində fantaziya, bütövlük və sistemli yanaşmanın əsas qaynaqlarıdır. Məhz bunun nəticəsində poeziya və incəsənət zaman etibarı ilə elmi qabaqlamışdır.

Dil kateqoriyaları ilə insan beyninin universal struktur xüsusiyyətləri arasında əlaqələr düşüncə ilə gerçəklik arasındakı izomorfluq prinsipi əsasında inkişaf edir.

Poeziya harmonik inkişaf edən bütöv sistemdir. Poetik dil və poetik düşüncə strukturları daim qarşılıqlı birgə təsirdə olur və nəticədə bu strukturlar arasında daha yüksək

uyğunluq yaranır. Poetik düşüncə ilə poetik dil arasında funksional-struktur uyğunluq, digər düşüncə və dil münasibətlərində nisbətən daha yüksəkdir. Bunun sayəsində poetik düşüncə ilə poetik dil harmonik inkişaf edən sistemin – poeziyanın dinamik vəhdətini yaradır.

Poetik düşüncə ilə poetik dil öz metaforikliyi sayəsində harmonik inkişaf edən sistemə – poeziyaya konvergensiya olunur.

Poetik dil "ifadə edilə bilməyəni ifadə etmək" prinsipi baxımından fikri yalnız ifadə etmir, həm də inkişaf etdirir.

## ƏDƏBİYYAT


1. Quliyev F.A. Türk xalq şeiri strukturunun planetarlığı haqqında // Metafizika, 2018, №1, s. 102-115.
2. Ананьев Б. Г. О проблемах современного человекознания, СПб.: Питер, 2001, 272 с.
3. Выготский Л., Мышление и речь. СПб.: Питер, 2019, 432 с.
4. Де Соссюр Фердинанд, Курс общей лингвистики, Екатеринбург: Уральского университета, 1999, 432 с.
5. Ивин А.А., Классический стиль мышления Нового времени // Философский журнал | Philosophy Journal, 2011, Т. № 2 (7), с. 24-39.
6. Ильин И.П., Постмодернизм. Словарь терминов.Москва: ИНИОН РАН (отдел литературоведения) – INTRADA, 2001, 384 с.
7. Кацнельсон С.Д., Общее и типологическое языкознание, М.: URSS, 2010, 344 с.
8. Лурье А.Р., Язык и сознение, М.: Изд.Москоского университета, 1979, 320 с.
9. Микешина Л.А., Философия науки: Современная эпистемология. Научное знание в динамике культуры. Методология научного исследования. М.: Прогресс-Традиция : МПСИ: Флинта, 2005, 464 с.
10. Миллер Е.Н.,Что такое язык? Гносеологический аспект, М.: URSS, 2009, 96 с.
11. Налимов В.В., Спонтанное сознание, Вероятностная теория смыслов и смысловая архитектоника личности, М.: Прометей, 1989, 288 с.
12. Новая философская энциклопедия. В 4 томах. М.: Мысль, 2010, Т. 4, 736 с.
13. Новейший философский словарь, Мн.: Книжный Дом, 2003, 1280 с.
14. Пивоев В.М., Эволюция стилей мышления // Философия и Проблемы Гуманитарного Знания, № 3, 2012, с. 20-27
15. Прибрам К. Языки мозга, М.: Прогресс, 1975, 464 с.
16. Рубинштейн С.Л. Основы общей психологии, СПб: Питер, 2002 , 720 с.
17. Симонов П.В. Мозг и творчество, Вопросы философии, 1992, №11, с.1-24.
18. Словарь философских терминов, М.: ИНФРА-М, 2010, XIV, 731 с.
19. Современный философский словарь, М.: Академический Проект, 2020, 823 с.
20. Философский словарь, М.: Республика Современник, 2009, 846 с.
21. Фолльмер Г. Эволюция и проекция -начала современной теории познания, с. 39-57 / Эволюция, культура, познание. М.: ИФРАН, 1996, 167 с.
22. Черникова И.В. Проблема "язык и мышление" в свете системно-эволюционного метода // Язык и культура, 2017. №40. с. 103-112. (http://vital.lib.tsu.ru/vital/access/manager/Repository/vtls:000621489)


***Резюме***

***Фахраддин Кулиев***


***Философские аспекты взаимосвязи поэтического языка и поэтичего мышления***

Исследованы философские аспекты взаимосвязи поэтического языка и поэтичего мышления в свете эволюционной эпистемологии**.** В статье исследованы философские аспекты взаимосвязи поэтического языка и поэтичего мышления. Основное внимание уделено на метафоричность и динамичность структур поэтического языка и мышления.

Язык и мышление- главные атрибуты человеческого бытия. Язык и мышление едины, определяющей стороной в этом единсте является мышление. Однако, и языковые категории оказывают существенное влияние на формирование мысли человека, так как посредством языка происходит восприятие и переход от идей к понятиям, можно осуществлять логические операции над понятиями.

Связь между языковыми категориями и универсальными структурными особенностями человеческого мозга развивается на основе принципа изоморфизма мысли и действительности.

Исследования, проведенные в области физиологии мозга, подтверждают, что структурно-функциональные свойства поэтического языка повторяются в той или иной форме в физиологических процессах чувственного восприятия.

Поэтическая мысль и поэтический язык благодаря своей метафоричности конвергируются в гармонически развивающуюся систему-поэзию. Поэзия представляет собой целую систему, которая развивается по закону гармонии. Структуры поэтического языка и поэтической мысли непрерывно взаимодействуют, в результате чего степень соответствия между этими структурами значительно выше. Установлено, что поэтический язык не только выражает, но и развивает идею по принципу «выразить невыразимое».

Эволюция взаимоотношения между поэтическсис языком и поэтического мышления целесообразно исследовать в свете отношения язык-мышление и общества. Степень соответствия поэтического мышления и поэтического языка значительно выше чем, других форм мышления и языка. Благодаря этому поэтический язык и поэтическое мышление составляет динамическое единство поэзии, как гармонически развивающейся системы

***Ключевые слова:*** *поэтичекий язык, поэтическое мышление, нелинейность, изоморфизм, взаимоотношение, конвергенция, коэволюция*

***Summary***

***Fakhraddin Quliyev***

***Phılosophıcal Aspects of Relatıonshıp of Poetıc Language and Poetıc Thınkıng***

The philosophical aspects of the relationship between poetic language and poetic thinking are explored in the light of evolutionary epistemology. The article explores the philosophical aspects of the relationship between poetic language and poetic thinking. The main attention is paid to the metaphorical and dynamic structures of poetic language and thinking.

Language and thinking are the main attributes of human existence. Language and thinking are one, the defining side in this unity is thinking. However, linguistic categories also have a significant impact on the formation of a person's thought, since through language there is a perception and transition from ideas to concepts, it is possible to carry out logical operations on concepts.

The connection between linguistic categories and the universal structural features of the human brain develops on the basis of the principle of isomorphism of thought and reality.

Research conducted in the field of brain physiology confirms that the structural and functional properties of poetic language are repeated in one form or another in the physiological processes of sensory perception.

Poetic thought and poetic language, due to their metaphoric nature, converge into a harmoniously developing system-poetry. Poetry is a whole system that develops according to the law of harmony. The structures of poetic language and poetic thought continuously interact, as a result of which the degree of corres- pondence between these structures is much higher. It has been established that poetic language not only expresses, but also develops an idea according to the principle of "expressing the inexpressible".

The evolution of the relationship between poetic language and poetic thinking should be studied in the light of the relationship between language-thinking and society. The degree of correspondence between poetic thinking and poetic language is much higher than the correspondence between other forms of thinking and language. Thanks to this, poetic language and poetic thinking constitute the dynamic unity of poetry as a harmoniously developing system.

***Keywords:*** *poetic language, poetic thinking, nonlinearity, isomorphism, relationship, convergence, co-evolution*

Baş redaktor f.e.d., prof. Hüseynli Nazim Ziyad oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.